# Dalğalan, Zəfər bayrağım!



**Şanlı Azərbaycan Ordusunun qəhrəman hərbçiləri erməni qəsbkarlarını məğlubiyyətə uğrada-uğrada işğaldan azad etdikləri şəhər və kəndlərimizdə üçrəngli bayrağımızı dalğalandırdıqca hamımız qürur hissləri keçirirdik. Bu hisslərin təsirindən kövrəlirdik də... Kövrəldikcə də özümüzdən asılı olmayaraq göz yaşları yanağımıza süzülürdü... Bütün bunlar çox qürurverici anlar və dəqiqələr idi. Biz bu tarixi hadisəni, bu tarixi anları neçə illər arzulamışdıq, uzun illər gözləmişdik.**

Yəqin ki, bu mənzərələrə baxanda qürur hissləri keçirməyən, sevincdən kövrəlməyən yox idi. Bu, mümkün olan bir şey deyildi! Hisslərimiz nə qədər kövrək olsa da, hər birimizdə xoş duyğular oyadırdı, qəlbimizi iftixarla doldururdu. Şükürlər ki, ordumuzun zabit və əsgərləri hər gün kəndlərimizi işğaldan azad edir, böyük qürur hissi ilə üçrəngli bayrağımızı bu yaşayış məntəqələrində dalğalandırırdılar. Döyüşlər uğurla davam etdikcə, belə iftixar dolu anları çox yaşayırdıq. Azərbaycan əsgərinin Vətən müharibəsində göstərdiyi böyük qəhrəmanlıqların şahidi olurduq.

Zabit və əsgərlərimizin işğaldan azad olunmuş yaşayış məntəqələrində üçrəngli bayrağımızı dalğalandırmasına diqqətlə baxanda hiss edirdik ki, sanki bayraq torpaq üçün, torpaq da bu bayraq üçün darıxıb. Elə bil illərcə bir-birlərini axtarıb soraqlayırmışlar, bir-birlərinin həsrətini çəkirmişlər. İndi ikisinin də üzü gülürdü. Çünki ikisi də arzusuna çatmışdı, qovuşmuşdu. Bu bəxtəvərlikdən bayrağın da, torpağın da, onları bir-birinə qovuşdurub illərin intizarına son qoyan Azərbaycan əsgərinin də çöhrəsinə sevinc ələnirdi. İnanırdıq ki, bu gülüş, bu sevinc hərbçilərimizin üzündən heç vaxt əskilməyəcək. Onlar hər gün xidmətlərində uğurlar qazanacaq, yurdumuza göz dikmiş düşməni məhv edəcəklər.

Ömrümüz boyu işğaldan azad edilmiş yaşayış məntəqələrimizə bayrağımızın sancıldığı anı heç vaxt unutmayacağıq. Bu mənzərə göz yaddaşımıza, söz yaddaşımıza həmişəlik olaraq hopub qalacaq. Elə qalibiyyət bayrağımız da bu yerlərdə - əzəli torpaqlarımızda əbədi olaraq dalğalandıqca dalğalanacaq. Şərəf və iftixar dolu bu mənzərəni seyr etdikcə özümüzdən asılı olmadan ürəyimizdən pıçıltılar qopur. Bu pıçıltılar yavaş-yavaş gurlaşaraq haraya, hayqırtıya çevrilir. Buna görə də pıçıltı ilə yox, bütün varlığımızla, səsimizlə hayqırıb dünyaya səs salaraq deyirik ki, dalğalan, Zəfər bayrağım, dalğalan! Sənin yerin, məkanın həmişə ən uca zirvələrdir. Sən heç vaxt bu uca zirvələrdən enməyəcəksən. Dalğalandıqca dalğalanacaqsan, ucaldıqca ucalacaqsan!

## Xalqın Şuşa sevgisi

Əvvəllər təəssüf hissləri keçirirdik ki, gözəlliyinə şeirlər həsr olunmuş, mahnılar bəstələnmiş, şəninə tarixi əsərlər yazılmış Şuşanı görə bilmirik. O torpağa ayağımız dəymirdi, o yerlərin havasını udmurduq, buz bulaqlarından su içmirdik, heyrətamiz təbiətini seyr etmirdik. Şuşanın gözəlliyini yalnız şəkillərdə görürdük, televiziya ekranlarında baxırdıq. Amma Vətən müharibəsinin ilk günlərindəki ordumuzun uğurlarından hiss etdik ki, çox da heyifsilənib təəssüflənməyə dəyməz. Çünki sentyabr ayından başlanan döyüşlərdə zabit və əsgərlərimiz üstünlük qazandılar. Hərbçilərimiz uğurlu döyüşləri ilə xalqımızı sevindirirdi. Deməli, artıq Şuşanı görmək, o gözəl yerlərdə gəzmək hamımıza nəsib olacaqdı.

İstər Şuşa uğrunda vuruşan hərbçilərimizlə, istərsə də bu gözəl diyarda doğulub böyümüş insanlarla söhbətləşəndə onların dillərindən Azərbaycanın musiqi beşiyi olan bu qədim şəhərin ünvanına yalnız və yalnız məhəbbət və sevgilərlə dolu sözlər eşidirdik. Bu sözləri dinlədikcə Şuşaya sevgi və məhəbbətimiz daha da artırdı. Demək olar ki, hamı uzun illərdən bəri erməni işğalında qalmış Şuşanı görmək arzusu ilə yaşayırdı. Xalqın Şuşa sevgisi, Şuşa məhəbbəti bitib tükənmirdi. Artdıqca artırdı. Erməni işğalçıları iyirmi səkkiz il idi bizi Şuşaya həsrət qoysa da, bu qədim və doğma məkana dönmək arzusu ilə nəfəs alırdıq. Kükrəyib daşan bu sevginin, bu istəyin qarşısını təbii ki, bir qüvvə ala bilməzdi. Doğrudan da, elə də oldu. İlıq payız günlərinin birində Şuşa ilə bağlı olan arzularımız çiçək açdı, xəyallarımız gerçəkləşdi.

Qırx dörd gün doğma Qarabağımızın azadlığı uğrunda qanlı döyüşlər getdi. Azərbaycan Ordusunun cəsur zabit və əsgərləri qanları və canları bahasına addım-addım torpaqlarımızı erməni işğalçılarından azad etdilər. Qəhrəman hərbçilərimiz döyüşlər zamanı düşmən üzərində böyük uğurlar və zəfərlər qazandılar. Günlər keçdikcə üçrəngli Azərbaycan bayrağı işğaldan azad edilmiş şəhər və kəndlərimizdə dalğalanırdı. Xalqımızın ən böyük arzularından biri işğaldan azad edilmiş başqa şəhərlərimiz kimi, Şuşaya da qalibiyyət bayrağının sancılması idi. Elə Azərbaycan Ordusunun zabit və əsgərləri də məhz bu amal, bu məqsəd uğrunda vuruşurdular. Hərbçilərimiz cəsarət və hünərləri ilə həm özləri istəklərinə çatdılar, həm də xalqımızın arzularına qol-qanad verdilər.

Yurdumuzun azadlığı uğrunda başlanan döyüşlər ordumuzun üstünlüyü ilə davam etdikcə cəbhədən bir-birindən xoş xəbərlər alırdıq. Cocuq Mərcanlıda dalğalanan bayrağımız, nəhayət ki, 8 noyabr 2020-ci ildə Şuşada yüksəldildi. Bundan şəhidlərimizin ruhu da rahatlıq tapdı! Uzun illərdən sonra Şuşa erməni işğalından qurtularaq azadlığına qovuşdu, ömrünün ikinci həyatını yaşamağa başladı. Şuşaya Zəfər bayrağı sancılan həmin anlarda buludlar da sevincindən əl çalıb nəriltiylə ağladı, göylər də gur-gur guruldadı! Bu gurultu, bu nərilti heç vaxt ürəklərdən silinməyəcək, qəlbimizdə əbədi olaraq səslənəcək. Bizi yeni uğurlara, zəfərlərə çağıracaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 22 may, №106.- S.11.